**AZƏRBAYCAN RESPUBLİKASININ**
**SƏHİYYƏ NAZİRİ**

**Ə M R**

№ 49

**Bakı şəhəri** "06" iyun 2014-cü il

**"Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin strukturunda Toksikoloji-kimyəvi müayinələr üzrə Referens laboratoriyasının yaradılması barədə"**

İnsan sağlamlığına mənfi təsir göstərə bilən amillərin müəyyən edilməsi, respublikada fəaliyyət göstərən laboratoriyalarda aparılan toksikoloji-kimyəvi müayinələrin keyfiyyətinə nəzarət və arbitraj funksiyalarını həyata keçirmək məqsədi ilə

**ƏMR EDİRƏM:**

1. Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin strukturunda Toksikoloji-kimyəvi müayinələr üzrə Referens laboratoriyası yaradılsın.

2. "Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin Toksikoloji-kimyəvi müayinələr üzrə Referens laboratoriyası haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

3. Toksikoloji-kimyəvi müayinələr üzrə Referens laboratoriyasının işçilərinin say həddi 15 ştat vahidi müəyyən edilsin (əlavə olunur).

4. Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktoru A.Əlibəyova tapşırılsın:

4.1. Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin əsasnaməsində və ştat cədvəlində müəyyən edilmiş qaydada müvafiq dəyişikliklər edilsin;

4.2. Toksikoloji-kimyəvi müayinələr üzrə Referens laboratoriyasının saxlanılması sanitariya-epidemioloji xidmətinin ümumi ştat sayı və əmək haqqı fondu daxilində həll edilsin.

5. Əmrin icrasına nəzarət nazir müavini Abbas Vəlibəyova həvalə edilsin.

Oqtay Şiraliyev

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 06.06.2014-cü il tarixli 49 nömrəli əmri ilə təsdiq edilmişdir

**Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin Toksikoloji-kimyəvi müayinələr üzrə Referens laboratoriyası haqqında**

# ƏSASNAMƏ

## I. Əsas müddəalar

1. Toksikoloji-kimyəvi müayinələr üzrə Referens laboratoriyası (bundan sonra – Laboratoriya) insan sağlamlığına mənfi təsir göstərə bilən amillərin toksikoloji-kimyəvi tədqiqatını və respublika ərazisində fəaliyyət göstərən laboratoriyalarda bu sahədə aparılan müayinələrin keyfiyyətinə nəzarət və mübahisəli hallarda son rəyin verilməsi üçün arbitraj funksiyalarını həyata keçirən Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin struktur bölməsidir.

2. Laboratoriya öz fəaliyyət sahəsi üzrə respublika və beynəlxalq standartlarının tələblərinə cavab verməlidir.

3. Laboratoriyanın işi mövcud qanunvericilik, bu Əsasnamə və nazirliyin müəyyən etdiyi qaydalarla tənzimlənir.

## II. Laboratoriyanın əsas vəzifələri

4. Laboratoriyanın əsas vəzifələri aşağıdakılardır:

4.1. öz profili üzrə müayinələrin nomenklaturasının hazırlanmasında iştirak edir;

4.2. zəhərlənmələr zamanı və insan sağlamlığına mənfi təsir göstərə bilən amillərin (istehlak əşyaların, dərman preparatlarının, biomaterialların, qida məhsullarının) müəyyən edilməsi üçün toksikoloji-kimyəvi müayinələri həyata keçirir;

4.3. laboratoriyanın cihaz və avadanlıqla təchizatı barədə təkliflər hazırlayır;

4.4. profili üzrə müayinələrin şübhəli nəticələrini müəyyən edilmiş qaydada müayinə edərək dəqiqləşdirir;

4.5. fəaliyyətində daha müasir və yüksək həssaslı diaqnostik üsullardan istifadə edir;

4.6. müayinələrin aparılması zamanı Səhiyyə Nazirliyi tərəfindən təsdiq edilmiş protokollara və tələblərə riayət edir;

4.7. xarici nəzarət və arbitraj məqsədilə aparılmış müayinələr barədə sənədlərin müəyyən edilmiş qaydada saxlanılmasını təmin edir;

4.8. öz profilinə aid laboratoriyalara metodik və praktik köməklik göstərir;

4.9. öz profilinə aid laboratoriyaların mütəxəssislərinin yeni müayinə üsullarının tətbiqi ilə əlaqədar hazırlanmasını təşkil edir;

4.10. elmi-tədqiqat işlərinin aparılmasında iştirak edir;

4.11. fəaliyyəti barədə müəyyən edilmiş qaydada hesabatlar hazırlayır.

## III. Laboratoriyanın hüquqları

5. Laboratoriya öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

5.1. öz profilinə aid laboratoriyalarda xarici nəzarət funksiyalarını həyata keçirməklə referens funksiyalarını icra etmək;

5.2. müvafiq laboratoriyalarda aparılmış müayinələr barədə lazımi sənədləri tələb etmək;

5.3. laboratoriyada aparılmış müayinə nəticəsinə əsasən müvafiq laboratoriyalarda aparılmış müayinələrin nəticələrini ləğv etmək;

5.4. öz profili üzrə laborator müayinələrin aparılması üçün müqavilələr bağlamaq üçün təkliflər vermək;

5.5. öz profili üzrə müvafiq beynəlxalq referens laboratoriyaları tərəfindən vaxtaşırı sertifikasiyadan keçmək;

5.6. öz profili üzrə müvafiq beynəlxalq referens laboratoriyaları cəmiyyətinin üzvü olmaq, yeni diaqnostik üsulları ilə tanış olub əldə etmək üçün beynəlxalq simpoziumlarda, elmi konfranslarda və sərgilərdə iştirak etmək;

5.7. öz profili üzrə təsdiq edilmiş sənəd toplusunu, işləmə qaydalarını və digər informasiyanı müvafiq laboratoriyalara vaxtaşırı çatdırmaq.

Azərbaycan Respublikası Səhiyyə
Nazirliyinin 06.06.2014-cü il tarixli
49 nömrəli əmrinə əlavə

**Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin Toksikoloji-kimyəvi müayinələr üzrə Referens laboratoriyası**

| | **Vəzifələrin adı** | **Ştat vahidlərinin sayı** |
|---|---|---|
| 1. | Laboratoriya müdiri | 1,0 |
| 2. | Həkim-laborant | 3,0 |
| 3. | Kimyaçı | 2,0 |
| 4. | Laborant | 2,0 |
| 5. | Mühəndis | 1,0 |
| 6. | Texnik | 1,0 |
| 7. | Kompüter üzrə operator | 2,0 |
| 8. | Xadimə | 3,0 |
| | **CƏMİ:** | **15,0** |